# MƏNİM ATAM DÜNYANIN ƏN YAXŞI ATASIDIR...

## *Şəhid, Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin qızı Nigar Əliyeva ilə müsahibə*

**Bir Qəhrəman var... Hələ işğal olunmadığı zaman Qarabağın hər qarışından ayrı düşməyə məcbur olan... Sonda, yanan evini görüb Ulu Əcdadının ruhunu bədənində qonaq edən Qəhrəman... O gündən Ulu Əcdadının ruhu nə deyirsə, o cür davranan Qəhrəman... O yanmış evinin söndürülməsi, o intiqam alovunun isə daha da alovlanması üçün ömrünün düz 20 ilini yazıb-oxuyan, çalışan, yuxusuz gecələr keçirən Qəhrəman... Sonda, Ulu Əcdadının ruhunu həlәki şad edə bilmədiyini duyub intiqam alovunu daha da kükrədən Qəhrəman... Vətən müharibəsinin onsuz keçən hər günündə hiddətindən ürəyi partlamaq həddinə çatan Qəhrəman... Vətən müharibəsində 10 gün vuruşub, son damla qanını Şuşanın ilk azad edilmiş qarış torpağında axıdan Qəhrəman... Bu Qəhrəman 2886 ŞƏHİDİMİZDƏN BİRİ, əsrlərlə dillərdən düşməyəcək Vətən Müharibəsinin Qəhrəmanı, Şəhid polkovnik-leytenant Anar Əliyevdir...**



Anar Əliyev 28 avqust 1980-ci ildə Kəlbəcər rayonunun Boyaqlı kəndində müəllim ailəsində dünyaya göz açmışdır. Atası Vaqif Əliyev və anası Azərbaycan Xarici Dillər İnstitutunu bitirmişdir və hər ikisi məktəbdə müəllim idilər. Anar Əliyevin soyu, nəsli Kəlbəcərin ilk sakinlərindən olan el arasında "Kalvavəllər" kimi tanınan Kərbəlayi Vəlinin nəslinə qədər uzanıb gedir. O, Kərbəlayi Vəlinin tayfasından olan Kərbəlayi Əlinin yadıcası, Məşədi İsmayılın kötücəsi, Əlinin nəticəsi, Vaqif Əliyevin ikinci oğlu idi.

Anar valideynlərinin iş yeri ilə əlaqədar olaraq keçmiş DQMV-nin Ağdərə rayonunun Həsənqaya sovetliyinin Levonarx kəndinə köçməklə orada yaşamış və 1986-cı ildə burada yerləşən rus dilli Levonarx kənd məktəbinin birinci sinfinə daxil olmuş, 1988-ci ilə qədər burada təhsil almışdır. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı, Qarabağla bağlı ərazi iddiaları və dinc sakinlərə edilən hücumlar nəticəsində Qarabağ müharibəsi başlamış, bu zaman Anar Əliyevin ailəsi hücumlardan başlayan deportasiyalar nəticəsində Tərtər rayonunun Bəyimsarov kəndinə köçmüşdür. Anar Əliyev 1993-cü ilə qədər Tərtərin rayonunun Bəyimsarov kəndində təhsil almış, 1993-cü ildə Şəmkir rayonunun Çaykənd kənd tam orta məktəbində təhsilini davam etdirmiş, 1995-ci ilə, yəni 9-cu sinifə qədər bu məktəbdə təhsil almış, 1995-ci ildə 9-cu sinifdə oxuyarkən Cəmşid Naxçıvanski adına hərbi liseyə imtahanla qəbul olmuşdur. O, 1997-ci ilə qədər bu liseydə təhsil almış, 1997-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olmuş, 2001-ci ildə Ali Hərbi Məktəbi "qoşun kəşfiyyatı" ixtisası üzrə bitirmişdir.

Gənc Anar həmin il Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində zabit ixtisas kursunun dinləyicisi olmuş, 2001-ci ildə ali hərbi təhsilini başa vuraraq Müdafiə Nazirliyinin 25.08.2001 tarixli əmrinə əsasən ona "leytenant" hərbi rütbəsi verilmiş, 2002-ci ildə dinləyici kursunu bitirərək Müdafiə Nazirliyinin əmrinə əsasən "N" saylı hərbi hissəyə xidmətə göndərilmişdir. O, 4 sentyabr 2002-ci ildən 1 may 2004-cü ilədək "N" saylı hərbi hissənin xüsusi təyinatlı tağım komandiri vəzifəsində çalışmışdır. Müdafiə Nazirliyinin 04.09.2003-cü il tarixli əmrinə əsasən Anar Əliyevə "baş leytenant" hərbi rütbəsi verilmişdir. O, 1 may 2004-cü ildən 20 dekabr 2006-cı ilədək "N" saylı hərbi hissənin xüsusi təyinatlı qrup komandiri, 20 dekabr 2006-cı ildən 12 aprel 2007-ci ilədək bölük komandiri vəzifəsində çalışmışdır. Müdafiə Nazirliyinin 15 dekabr 2007-ci il tarixli əmrinə əsasən Anar Əliyevə "kapitan" hərbi rütbəsi verilmişdir.

Anar Əliyev 12 aprel 2007-ci ildən 26 yanvar 2008-ci ilədək "N" saylı hərbi hissəsinin taborunda bölük komandiri, 26 yanvar 2008-ci ildən 15 iyun 2009-cu ilədək xüsusi təyinatlı dəstə komandirinin müavini vəzifəsində çalışmış, 15 iyun 2009-cu ildə isə xüsusi təyinatlı dəstə komandiri vəzifəsinə qədər yüksəlmişdir. Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları layiqincə yerinə yetirərkən fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.06.2011-ci il tarixli Sərəncamına əsasən Anar Əliyev "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

2014-cü ildə ikiillik Hərbi Akademiyanı bitirən Anar Əliyev Müdafiə Nazirliyinin əmrinə əsasən Naxçıvan MR-nin Hərbi Komandanlığının sərəncamına göndərilmişdir. Anar Əliyevin qüsursuz xidməti rəhbərlik tərəfindən vaxtında qiymətləndirilmişdir. Belə ki 26.06.2008 tarixli əmrə əsasən o, qüsursuz xidmətinin 10 illiyinə görə 3-cü dərəcəli, 2011-ci ildə isə 2-ci dərəcəli qüsursuz xidmətə görə medalları ilə təltif edilmiş, həmçinin "USTA" məharət dərəcəsi almışdır.

Anar Əliyevin arzusu təlimlərdə əldə etdiyi təcrübələrdən kəşfiyyata aid dərslik kitabı yazmaq idi.

Onun iştirak etdiyi hərbi təlimlər 2003-2019-cu illəri əhatə edir. 3-21 noyabr 2003-cü ildə Türkiyə Respublikasında "təməl paraşüt" kursunda, 2005-ci ildə Macarıstanda "ingilis dili" kursunda, 9 yanvar-17 fevral 2006-cı ildə Çexiyada "sülhməramlı əməliyyatlar üçün təlimatçı" kursunda, 17 yanvar-2 fevral 2007-ci ildə İsveçrə Respublikasında "qış dağ" kursunda, 2009-cu ildə Rumıniyada "hərbi əməkdaşlıq və təcrübə mübadiləsi" kursunda, yenə də həmin ildə Türkiyədə keçirilən "sərbəst paraşüt" kurslarında, 18 yanvar-12 fevral 2010-cu ildə Sloveniyada "təkmilləşdirilmiş qış-dağ" kursunda, 7 may-13 may 2010-cu ildə İordaniya Krallığında baş tutan "SOFEX-2010 " hərbi sərgisində iştirak etmişdir.

Anar Əliyevin son təlimi 2019-cu ilin avqustunda başlayan və 2020-ci ilin yanvar ayına qədər davam edən beş aylıq Pakistan İslam Respublikasında keçirilən hərbi kurslar olmuşdur. 2020-ci ilin yanvarında kursları müvəffəqiyyətlə keçdikdən sonra Müdafiə Nazirliyinin müvafiq əmrinə əsasən Anar Əliyev əvvəlcə Hərbi Hissə Komandirinin müavini, sonra isə Hərbi Hissə Komandiri vəzifəsinə yüksəlmiş, bu illər ərzində əvvəlcə mayor, sonra isə polkovnik-leytenant rütbəsi almışdır.

2018-ci il mayın 20-dən 27-nə qədər olan müddətdə Azərbaycan və Ermənistan arasında Naxçıvanın Günnüt kəndinin erməni işğalından azad edilməsi uğrunda döyüşlər baş vermişdi. Bu döyüşlər Azərbaycan-Ermənistan münaqişəsi tarixinə "Günnüt əməliyyatı" kimi yazılmışdır. Anar Əliyev bu azadetmə əməliyyatları zamanı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun təcrübəli zabiti idi və özü bu döyüşlərdə yaxından iştirak edirdi. 7 gün davam edən bu döyüşlər və Əlahiddə Ümumqoşun Ordusunun əks-həmləsi nəticəsində Şərur rayonunun Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya və Qaraqaya dağ silsiləsi erməni işğalçılarından azad olunub, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan ordusunun atəş nəzarəti altına keçirilib. Anar Əliyevin bu döyüşlərdəki igidliyi, şücaəti onun sağlığında da unudulmamış, əvəzsiz xidməti medallar, fəxri fərmanlar və təşəkkürnamələr ilə dəyərləndirilmiş, cəsur döyüşçümüz sağlığında NAXÇIVAN XTQ ƏFSANƏSİ olmağa haqq qazanmışdı.

2020-ci il sentyabrın 27-də səhər saat 06:00 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən genişmiqyaslı təxribat törədilmiş və cəbhəboyu ərazilərdə yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutulmuş, nəticədə, ölənlər və yaralananlar olmuşdur. Bu barədə məlumat Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bildiriləndən sonra Ermənistan Silahlı Qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısını almaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən cəbhəboyu ərazilərdə əks-hücum əməliyyatlarının başlaması barədə əmr verilmişdir.

27 sentyabr 2020-ci ildən başlanan Vətən müharibəsində Anar Əliyev Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı briqada komandiri kimi briqadasının bir hissəsi ilə iştirak etmiş, müharibənin Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd cəbhəsində gedən döyüşlər zamanı fərqlənmiş, 10 gündən çox Xocavənd rayonu ərazisində davam edən döyüşlərin nəticəsi olaraq strateji əhəmiyyətə malik olan Hadrut qəsəbəsi işğaldan azad edilmişdir. Onun da rəhbərliyi altında gedən döyüşlər və komandirliyini etdiyi xüsusi təyinatlı briqadanın fərqlənməsi nəticəsində 14 oktyabr 2020-ci il tarixində Füzuli rayonunun Qaradağlı, Xatınbulaq, Qarakollu və Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Qırmızıqaya, Təkə, Tağaser kəndləri, 15 oktyabr 2020-ci il tarixində Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Ciraquz kəndləri, 16 oktyabr 2020-ci il tarixində Xocavənd rayonunun Ağbulaq, Axullu və Xırmancıq kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.

Anar Əliyevin son döyüşü Şuşaya gedən yolda olan kəndlərin, xüsusilə də Xocavəndin Tuğ kəndi yaxınlığında gedən döyüşlər olmuş, 21 oktyabr 2020-ci ildə Tuğ kəndi və Şuşaya gedən yoldakı strateji yüksəkliklər uğrunda gedən döyüşlər zamanı düşmən tərəfin açılan atəş nəticəsində o, qəhrəmancasına şəhid olmuşdur. Döyüş yoldaşlarının dediklərinə görə o, qəfildən gözündən vurulmuş, yaralı komandir çənə söykənmiş, ona ilkin tibbi yardım edilmiş, yaralı gözünə iynə vurulmuş, başı sarınmış, lakin nəinki yaralı Anar Əliyev, hətta onu müalicə edən həkim belə düşmən tərəfindən atəşə tutulmuş və yaralanmışdır. Döyüş bölgəsində yaralı olan, lakin, qüvvətindən, qüdrətindən, zəkasından yaralı olmayan komandirin müavininə son sözü və son əmri bu olur: "Məndən sonra komandirliyi öz üzərinizə götürün! Bizi Şuşaya aparan strateji təpəni qövsvari əhatəyə alın! Aralı-aralı dayanın, düşmən bilsin ki, çoxuq. Müharibəni dayandırmayın! Təslim olmayın!" Anar Əliyev cismində daşıdığı əcdadlarının Ulu ruhunun çıxmaq istədiyini, onun ruhunu da aparmaq istədiyini hiss edirdi. Çox keçmədi ki, o, dilinə kəlmeyi-şəhadət gətirərək Şəhidlik Zirvəsinə yüksəldi... Şuşanın ilk qarışında Şəhadətə yüksələn Qəhrəman olaraq Vətən müharibəsində əldə edilmiş nailiyyətlərdə böyük rol oynadı, qazandı. 23 oktyabr 2020-ci il tarixində onun mübarək nəşi mühasirədən çıxarılaraq Füzulidə yerləşən diaqnostika mərkəzinə, 24 oktyabrda isə diaqnostika mərkəzindən doğulmadığı, lakin boya-başa çatdığı Tərtər rayonunun Bəyimsarov kəndinə son vida mərasimi üçün gətirilmiş, son vida mərasimindən 1 gün sonra, 25 oktyabr 2020-ci ildə izdihamla, Müdafiə Nazirliyinin təşkil etdiyi yaylım atəşləri və Azərbaycan Respublikasının dövlət himninin sədaları altında II Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

***(Davamı 16-cı səhifədə)***

# MƏNİM ATAM DÜNYANIN ƏN YAXŞI ATASIDIR...

## *Şəhid, Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin qızı Nigar Əliyeva ilə müsahib*



*(Əvvəli 10-cu səhifədə)*

Anar Əliyev hələ sağlığında "CBC" TV-yə xüsusi təyinatlıların təlimi barədə müsahibə vermişdir. Onun həlak olması xəbəri rus saytlarında belə verilmişdir. Şəhidlərin siyahısı müəyyən olunduqdan sonra Anar Əliyev barədə müsahibələr, xəbərlər, məqalələr hazırlanmış, yayılmış, dərc edilmişdir. Həmçinin 30 mart 2021-ci ildə Anar Əliyevin şəxsi əşyaları, materialları Sənədli Mənbələr Fondunun müdiri Esmira Rəhimova vasitəsilə Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir.

2021-ci ilin aprel ayında tanınmış hərbi cərrah, hərbi həkim, Qarabağ müharibəsi veteranı, yazıçı Əli İsmayılov Anar Əliyevə həsr olunan "İgid ölər, adı qalar" kitabını yazmış, kitab "Qanun" nəşriyyatında çap edilmişdir.

Millət vəkili Qənirə Paşayeva Anar Əliyevin atası Vaqif Əliyevlə görüşmüş, Anar Əliyevin xatirəsi bir daha yad edilmişdir.

2 aprel 2021-ci ildə Asan Xidmətin təşkil etdiyi, Aprel döyüşlərinin 5 illiyinə həsr olunmuş "Zəfərdən zəfərə" tədbiri videokonfrans şəklində keçirilmişdir. Tədbirdə bir çox şəhid ailəsinin üzvləri kimi Anar Əliyevin həyat yoldaşı Vüsalə Əliyeva da iştirak və çıxış etmişdir.

Şəhidimizin təsəvvürümüzdən qısa olan və mənalı keçən ömür kitabının icmalını vərəqlədikdən sonra gəlin Qəhrəmanımızı bir də qızı Nigar Əliyevanın təsəvvürü ilə tanıyaq... Jurnalistlər Birliyinin üzvü olmağım barədə vəsiqəni aldıqdan sonra götürdüyüm ilk müsahibəylə bağlı şəraiti yaratdığına görə qəhrəman Şəhidimizin qızı Nigar Əliyevaya və Şəhidimizin ailə üzvlərinə minnətdarlığımı bildirirəm...

**- İlk öncə Şəhid qızı kimi tanışlıq üçün özünüzdən bəhs etməyinizi xahiş edirəm.**

- Mən, Əliyeva Nigar, Şəhid polkovnik-leytenant, Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin qızıyam. Orta məktəbin 8-ci sinfində oxuyuram.

**- Atanızın hərbçi olmasını nə vaxt başa düşdünüz və həmin vaxt hansı hisslər keçirdiniz?**

- Ağlım kəsəndən atamın hərbçi olduğunu bilirdim. Hərbçi qızı olduğum üçün həmişə atamla, onun peşəsi ilə fəxr etmişəm. Çünki başqa hərbçilər kimi atam da tək bizi qorumurdu, düşünmürdü, o, Vətənin, xalqın müdafiəsini düşünürdü, bütün Azərbaycanı qoruyurdu, bu millətin, ərazilərimizin təhlükəsizliyini düşünürdü, bunun üçün çalışırdı.

**- Atanız, Azərbaycanımızın Şəhidi sizə nələri tövsiyə edirdi və sizə vətənpərvərlik hissini necə aşılayırdı?**

- Atam Allaha, İslam dininə bağlı biri idi. Şəhidliyin müqəddəs və şərəfli bir yol olduğunu bilirdi. Atam heç vaxt erməniyə əsir düşmək istəməzdi, ona görə də son nəfəsinə kimi vuruşaraq şəhidliyi seçdi. Bizə həmişə deyirdi ki, Vətənə layiq, doğru, ədalətli insan kimi xidmət eləyin.

**- Atanızın xasiyyəti necə idi, onun xasiyyətindən, xarakterindən nələri özünüz üçün həyat yolu kimi seçmisiniz?**

- Atam sadə, səmimi, mehriban, qayğıkeş, ədalətli, mərhəmətli, xeyirxah, gülərüz bir insan idi. Mənim atam dünyanın ən yaxşı atasıdır...

**- O, öz peşəsi, xidməti ilə əlaqədar Sizə və ya ailənizə nələri isə danışırdımı?**

- Əsla! O, əsl kəşfiyyatçı idi. Onun bütün hərbi fəaliyyəti hərbi sirr olduğu üçün bu barədə bizə nə isə deməzdi, bunları bildiyimiz üçün biz də soruşmazdıq.

**- Vətən müharibəsində atanızın da döyüşlərdə öndə olduğundan nə vaxt və necə xəbər tutdunuz, həmin anda hansı hisslər keçirdiniz?**

- Atam bizimlə 3-4 dəfə telefonla əlaqə saxladı. Mənimlə danışanda "ananın sözünə bax, dərslərinə fikir ver, özünüzə yaxşı baxın" dedi. Onda onun qanlı döyüşlərdə olduğunu bildim, atamla qürur duydum, onu və Azərbaycan əsgərini qoruması üçün Allaha dua etdim.

**- Atanızla son görüş və ya telefon əlaqəniz barədə danışa bilərsinizmi?**

- Atam 11 oktyabr 2020-ci ildə Naxçıvandan müharibəyə gedəndə gəlib bizimlə görüşdü, amma demədi, hara gedir, dedi ki, axşama qayıdacaq. Telefonla zəng edəndə bildik ki, müharibəyə gedi Atama çox inanırdım. Bilirdim ki, o düşmənin gücü çatmaz, ancaq o, özü dü məni məhv edər. Ona görə rahat idim.

**- Atanızı bir ata, bir insan, bir azə baycanlı və Vətən Şəhidi kimi necə x tırlayırsınız?**

- Əvvəldə dediyim kimi, mənim ata dünyanın ən yaxşı atasıdır. O, Vətən u runda can verən, damarlarında azəri tü künün qanı axan, əsl Azərbaycanlı idi.

**- Vətən müharibəsinin başlaması dan, Şəhidlərimizin canı, qazilərimiz sağlamlığı bahasına, əsgər və zabitlə mizin şücaəti sayəsində 44 günlük V tən müharibəmizin düşmən bitməsi dən, yerinə yetən qisas hissindən Şəhi qızı kimi hansı hisslər keçirməyiniz b rədə nə deyə bilərsiniz?**

- Biz hamımız 10 noyabrda gecə ya madıq. Zəfəri həm göz yaşları, həm d sevinclə qarşıladıq. Atamın qələbəy qayıtmasını istərdim... Sevindim ki, onu qisası alındı, onun Vətəni azaddır.

**- Şəhidimizə sağlığında verdiyin vədləriniz barədə arzularınızı dinl mək xoş olardı. Məncə, bu, bütün ş hidlərimizin övladları üçün həyat dev zi, şüarı ola bilər.**

- Atam mənim rus-ingilis dilini bi məyimi istəyirdi. Atam deyirdi ki, q uşağı ya həkim, ya müəllimə olar. Mə də atamın arzularını yerinə yetirəcəyə Ən əsası kim oluramsa-olum, Anar Əl yevin qızı kimi olmalıyam. Hansı peşəd oluramsa, olum, Vətənimə, xalqım dövlətimə, Atama layiqli olmalıyam. Ci mən yanımızda olmasa da ruhən həmiş bizimlədir. O, bizi qoruyan mələyimi dir. Ruhun şad olsun, Ata!

*202*



***Sevindik* Nəsiboğlu**
*8-ci sinif şagirdi,*
*şair-publisist, AJB-nin üzvü*